**Ulu öndər Heydər Əliyevin anadan olmasının ildönümünə həsr olunmuş**
**“Ən yaxşı təqdimat” müsabiqəsinin**
**ƏSASNAMƏSİ**

## 1. Ümumi müddəalar

1.1. Bu əsasnamə ümumi təhsil müəssisələrinin IX-XI sinif şagirdləri arasında Ulu öndər Heydər Əliyevin doğum gününə həsr olunmuş “Ən yaxşı təqdimat” müsabiqəsinin keçirilməsi qaydalarını müəyyən edir.

1.2. Müsabiqənin keçirilməsində məqsəd məktəblilər arasında müstəqil Azərbaycan dövlətinin qurucusu, dahi siyasətçi və qüdrətli dövlət xadimi Heydər Əliyevin zəngin siyasi irsinin, şərəfli həyat və fəaliyyətinin gənc nəsil tərəfindən öyrənilməsi işinin daha da gücləndirilməsini təmin etməkdir.

## 2. İştirakçıların müəyyən olunması

2.1. Müsabiqədə Azərbaycanın bütün şəhər və rayonlarında fəaliyyət göstərən ümumtəhsil müəssisələrində (dövlət, özəl və digər qurumlara tabe olan) təhsil alan IX, X və XI sinif şagirdləri iştirak edə bilər.

2.2. Müsabiqə rayon (şəhər) və ölkə mərhələsindən ibarətdir. Müsabiqənin rayon (şəhər) mərhələsi hər ilin fevral-mart aylarında rayon və şəhərlərdə, ölkə mərhələsi isə aprel ayında Bakı şəhərində keçirilir.

2.3. Müsabiqədə iştirak etmək istəyən təhsilalanların valideynləri (və ya digər qanuni nümayəndələri) yanvar ayında portal.edu.az portalında (bundan sonra – Portal) qeydiyyatdan keçir və övladını şəxsi kabinetə əlavə edərək Portalın “Müsabiqələr və olimpiadalar” xidməti

vasitəsilə müsabiqədə iştirak etmək üçün müraciət edir. İştirakçı müsabiqə ilə bağlı zəruri məlumatları (keçirilmə tarixi və vaxtı, məkan və s.) şəxsi kabinet vasitəsilə əldə edir.

2.4. Digər qurumların tabeliyində olan və özəl ümumi təhsil müəssisələrinin şagirdləri rayon (şəhər) mərhələsində müvafiq ərazi üzrə qeydiyyata alınırlar.

2.5. Rayon (şəhər) mərhələsində iştirakçıları Elm və Təhsil Nazirliyi yanında Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin yerli bölmələrinin əmri ilə müəyyən etdiyi komissiyalar qiymətləndirir.

2.6. Ölkə mərhələsinin müsabiqə komissiyasının tərkibi elm və təhsil nazirinin əmri ilə təsdiq edilir.

2.7. Müsabiqə mövzuları və qiymətləndirmə meyarları hər iki mərhələ üçün eynidir.

2.8. Ölkə mərhələsinin iştirakçıları üçün aşağıdakı qaydada kvota müəyyənləşdirilir:

2.8.1. Bakı şəhərindən 17 (on yeddi) şagird;

2.8.2. Gəncə, Sumqayıt, Mingəçevir şəhərlərinin hər birindən və Abşeron rayonundan – 2 (iki) şagird;

2.8.3. digər şəhər və rayonların hər birindən 1 (bir) şagird.

2.9. Müsabiqənin rayon (şəhər) və ölkə mərhələlərində iştirak edən təhsilalanların çıxışlarının videoqeydi aparılır.

## 3. Müsabiqənin mövzuları

3.1. Müsabiqənin təqdimat mövzuları aşağıdakı kimi müəyyən olunur:

3.1.1. Heydər Əliyevin ölkəmizin müstəqilliyinin möhkəmləndirilməsində rolu;

3.1.2. Heydər Əliyev və azərbaycançılıq məfkurəsinin milli ideologiya səviyyəsinə yüksəldilməsi;

3.1.3. Heydər Əliyevin təhsil və mədəniyyətimizin inkişafına verdiyi töhfələr;

3.1.4. Heydər Əliyevin gənclər siyasəti;

3.1.5. Heydər Əliyev və mənim doğma şəhərim (rayonum).

## 4. Müsabiqənin qiymətləndirmə meyarları

4.1. Təqdimatçılar üçün aşağıdakı qiymətləndirmə meyarları müəyyən olunur:

4.1.1. təqdimatçının mövzu ilə bağlı dolğun və əhatəli məlumata malik olduğunu nümayiş etdirməsi;

4.1.2. şərh etdiyi məsələlərə müxtəlif mövqelərdən yanaşma və öz mövqeyini bildirməsi;

4.1.3. irəli sürdüyü fikirləri təhlil əsasında faktlarla əsaslandırması və nəticələr çıxarması;

4.1.4. müasir Azərbaycan tarixi üzrə dolğun biliklərə malik olması;

4.1.5. nitqinin səlisliyi və lüğət ehtiyatının zəngin olması.

4.2. Hər meyar 5 ballıq şkala əsasında qiymətləndirilir. Toplana biləcək maksimum bal 25 olaraq müəyyən edilir.

## 5. Mükafatlandırma

5.1. Müsabiqənin ölkə mərhələsinin qalibləri I, II və III dərəcəli diplomlarla və hədiyyələrlə mükafatlandırılır.

5.2. Mükafatlandırma mərasimi may ayında Elm və Təhsil Nazirliyinin təşkilatçılığı və ictimaiyyət nümayəndələrinin iştirakı ilə keçirilir.

## 6. Yekun müddəalar

6.1. Bu Əsasnamə Elm və Təhsil Nazirliyinin Əsasnaməsinə və digər normativ hüquqi sənədlərə uyğun şəkildə hazırlanmışdır.

6.2. Bu Əsasnamə təsdiq edildiyi tarixdən qüvvəyə minir.